# BÖYÜK SUALLARA QISA CAVABLAR



Stiven Hokinq

Tərcüməçi:
Araz Gündüz

qanun nəşriyyatı

# BRIEF ANSWERS TO THE BIG QUESTIONS



Stephen Hawking

Kitabı dahi Stiven Hokinqin bir alim və ictimai xadim kimi vəsiyyəti, insanlığa çağırışı və müdrik məsləhətləri kimi də dəyərləndirmək olar. Həyatının son ilində ən müxtəlif söhbət və müsahibələrindən ibarət arxiv əsasında yazmağa başlamışdı. Lakin amansız xəstəlik müəllifin əsəri bitirməsinə imkanı vermədi. Stiven Hokinq Fondu və alimin həmkarları əsəri tamamlayıb geniş oxucu kütləsinin sərəncamına verdi. Sadə, anlaşıqlı və estetik zövqlə yazılmış kitabın Azərbaycan oxucusu tərəfindən də maraqla qarşılanacağı şübhəsizdir.

**Stephen Hawking BRIEF ANSWERS TO THE BIG QUESTIONS**
**Stiven Hokinq BÖYÜK SUALLARA QISA CAVABLAR**
Bakı, Qanun nəşriyyatı, 2022, 248 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 01.03.2022

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Araz Gündüz
Korrektorlar: Gülgəz Nur,
Əyyar Tahir
Texniki redaktor: Lalə Hüseyn
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-789-8

© Qanun Nəşriyyatı, 2020; 2022
Copyright © 2018 by Space Time Publications Limited

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının qanununa ziddir.

# Naşirdən

Alimlər, texnoloji iş adamları, böyük biznesmenlər, siyasətçilər və geniş ictimaiyyətin nümayəndələri həmişə Stiven Hokinqdən onları maraqlandıran "başlıca suallar" barədə soruşardılar. Stiven müxtəlif vaxtlarda çıxışlar, müsahibələr və esselər vasitəsi ilə bu suallara verdiyi cavablardan çox böyük bir arxiv yaratmışdı.

Bu kitab onun topladığı həmin arxivə əsaslanaraq yazılmağa başlamış, ancaq Stivenin vəfatı ilə əlaqədar olaraq yarımçıq qalmışdı. Bu səbəbdən, kitabı Stivenin həmkarları ilə birgə, onun ailə üzvləri və *Stephen Hawking Estate* fondu tamamlamalı oldu.

Kitaba görə müəllifin hesabına köçürülən pul vəsaitinin müəyyən faizi xeyriyyəçilik məqsədi üçün xərclənəcəkdir.

# Ön söz

*Eddi Redmayne*

Stiven Hokinqi ilk dəfə görəndə onun qeyri-adi gücü və bununla yanaşı olaraq, fiziki baxımdan köməksizliyi məni bərk sarsıtmışdı. Mən artıq Stivenin bütün diqqətini topladığı baxışları və büsbütün tərpənməz olan bədəni ilə tanış idim. Çünki bir az öncə məni baş rolda çəkilməyə dəvət etdikləri "Stiven Hokinqin kainatı" *(The Theory of Everything)* filminin çəkilişinə hazırlaşırdım və elə buna görə də, bir neçə ayımı onun elmi işlərini öyrənməyə və Stivenin əziyyət çəkdiyi yanakı Amiotrofik skleroz xəstəliyinin inkişafını inandırıcı şəkildə verə bilmək üçün onun bu xəstəliyini araşdırmağa sərf etmişdim.

Ancaq buna baxmayaraq, yalnız kompüter sintezatorunun çıxardığı səslə danışan və qaşlarının tərpənişi ilə ünsiyyət qura bilən, müasir elmin simvoluna çevrilmiş bu fenomenal dərəcədə istedadlı alimlə ilk şəxsi görüşümdə bərk sarsılmışdım. Mən, adətim üzrə, səssizlikdən əsəbiləşirəm və çox danışanam. O isə kənardan müşahidə edilən insan üçün səssizliyin və hissiyyatın necə güclü rol oynadığını

çox gözəl anlayırdı. Özümü itirdiyimdən onunla ad günlərimizin az qala eyni olduğu və ikimizin də eyni bir Zodiak bürcü altında doğulduğumuz barədə danışmağa başladım. Bir neçə dəqiqə sonra Stiven dilləndi: "Mən astroloq deyiləm, astronomam". O, həm də təkid etdi ki, onu "professor" deyil, sadəcə, Stiven çağırım. Bu barədə mənə öncədən də xəbərdarlıq etmişdilər...

Stivenin obrazını ekranda canlandırmaq fürsəti qazanmaqla bəxtim bərk gətirmişdi. Bu rol mənim üçün öz dualizmi ilə çox cazibədar idi: elmdə böyük uğurlar qazanmaqda ifadə olunan zahiri tərəflə yanaşı, iyirmi yaşından sonra inkişaf etməyə başlamış yanakı amiotrofik skleroz xəstəliyi ilə əlaqədar Hokinqin aparmalı olduğu əzablı daxili mübarizənin eyni bir şəxsin ömründə qovuşması doğrudan da, heyrətamiz idi. Onun həyatı mürəkkəb və zəngin olmaqla bərabər, insan gücü xaricində olan bənzərsiz bir fəaliyyət tarixi sayıla bilər: bu, ailəsini sevən, böyük elmi uğurlara nail olan və eyni zamanda, qarşısına çıxan hədsiz çətinlikləri saya salmadan addımlamağı bacaran bir insanın şərəfli ömür yolu idi. Biz bu filmdə Stivenin və onu əhatə edən insanların nümayiş etdirdiyi coşqun ilhamı və eyni zamanda, qəhrəmanlıq və fədakarlığı tərənnüm etməyə çalışırdıq.

Burada, Stiveni əsl şoumen kimi təqdim etmək də ən vacib məsələlərdən biri idi. Filmə çəkildiyim təkərli meydançada məni ilhamlandıran üç plakat asmışdım. Onlardan biri Eynşteynin məşhur, dilini bayıra çıxarıb çəkdirdiyi fotosu idi, çünki Hokinqə də eyni ilə onunku kimi şux bir zehniyyət xas idi. İkinci plakatda oyun kartı dəstindəki coker (kukla oynadan) təsvir edilmişdi. Çünki mənə elə gəlirdi

ki, Stiven həmişə insanları öz əlində saxlaya bilir. Üçüncü plakatda parlaq oyunu və iti zəkası mənim üçün örnək olan aktyor Ceyms Dinin şəkli verilmişdi.

Yaşamaqda olan insanın rolunu oynayanda onun sənin oyununla bağlı rəyi ilə hesablaşmağa məcbur olduğundan, öz üzərində çox ağır bir təzyiq duyursan. Stivenlə bağlı halda, üstəlik, onun ailəsinin rəyini də nəzərə almaq tələb olunurdu. Çəkilişə hazırlaşdığım dövrdə onlar mənimlə çox xeyirxah rəftar edirdilər. Filmin ilk nümayişindən öncə Stiven mənə dedi: – Nə düşünürəmsə, onu da deyəcəyəm: "Yaxşı", yaxud da "Yaxşı alınmayıb".

Mən soruşdum: – Əgər "yaxşı alınmayıb" variantı üzərində dayansa, bəlkə, yalnız bunu deməklə kifayətlənib, məni bunun niyəsini öyrənməkdən azad etsə yaxşıdır?

Ancaq filmə baxandan sonra Stiven ürəkdən gələn bir səmimiyyətlə bildirdi ki, film onun çox xoşuna gəlib və hətta kövrəldib. Ancaq sonradan onun film haqqında dediyi başqa bir ifadə daha geniş yayılmışdı. Onun fikrincə, filmdə fizikaya lirikadan daha artıq yer verilməliydi. Əlbəttə, bu məsələdə onunla mübahisə etmək mənasız olardı.

"Stiven Hokinqin kainatı" filminin çəkilişindən sonra da Hokinq ailəsi ilə ünsiyyətimi davam etdirdim. Stivenin ailəsi onun dəfnində mənim də bir neçə söz deməyimi təklif edəndə bu məni dərindən kövrəltdi. Bu, qeyri-adi dərəcədə kədərli, bununla yanaşı olaraq, bütün dünyanı elm sahəsində qabaqlayan və əlil insanların xoşbəxt həyat sürə bilməsinin mümkünlüyünü öz mübarizəsi ilə təsdiq edən ən cəsur insanın həyatı barədə şən xatirələrin və ona olan sevginin aşıb-daşdığı gözəl bir gün idi.

Biz həqiqətən də, parlaq bir zəkanı, heyrətamiz bir alimi və mənim tanımaq xoşbəxtliyinə nail olduğum insanların arasında ən şən olan bir şəxsi itirdik. Ancaq ailə üzvlərinin dediyi kimi, Stivenin ölümündən sonra da onun əsərləri və qoyub getdiyi miras yaşamaqda davam edir. Ona görə də, mən kədərlə, ancaq həm də böyük sevinclə, Stivenin ən müxtəlif cazibəli mövzularla bağlı düşüncələrinin cəmləşdiyi bu toplunu sizə təqdim edirəm. Sizin bu kitabdan həzz alacağınıza inanıram və Barak Obamanın dediyi kimi, Stivenin orada – ulduzların arasında sevinc içində məskunlaşacağına ümid edirəm.

*Sevgilərimlə, Eddi.*

# Giriş

*Professor Kip S. Torn*

Stiven Hokinqlə ilk dəfə 1965-ci ildə Londonda, ümumi nisbilik nəzəriyyəsi və qravitasiya mövzusunda keçirilən konfransda görüşmüşdüm. O vaxt Stiven Kembric universitetində doktorluq dissertasiyasını müdafiə etməyə hazırlaşırdı; mən isə az öncə, Pristonda doktorluq dissertasiyamı müdafiə etmişdim. Konfransın kluarlarında belə bir şayiə dolaşırdı ki, guya Stiven bizim Kainatın keçmişdə, bəlli bir zaman kəsiyində doğulduğunun inkaredilməz isbatını tapmışdır. Kainatın sonsuz dərəcədə köhnə olmadığını sübut etmişdir.

Mən də yüzlərlə insana qoşulub qırx nəfər üçün hesablanmış zalın basırığına girmişdim ki, Stivenə qulaq asa bilim. O, əlində əsa ilə gəldi, danışığında bir azca anlaşılmazlıq vardı, ancaq bundan başqa onda, iki il öncə həkimlərin qoyduğu yanakı amiotrofik skleroz xəstəliyinin hansısa əlamətlərini hiss etmək çox çətin idi. Xəstəliyinə baxmayaraq, onun şüuru heyrətamiz dərəcədə aydın olaraq qalırdı. Onun düşünülmüş isbatı Eynşteynin ümumi nisbilik nəzəriyyəsi tənliyinə, bizim Kainatın genişlənməsini sübut edən